2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 05 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 24 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Abbasov Bayram Aman oğlu və Həsənov Vladdin Mehrac oğlunun 117 saylı Oğuz – Qəbələ seçki dairəsinin 33 saylı seçki məntəqəsində qanunsuzluqların baş verməsi və qanunsuz hərəkətlərin araşdırılmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 05 saylı müraciətini nəzərdən keçirərək **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində Abbasov Bayram Aman oğlu və Həsənov Vladdin Mehrac oğlunun 117 saylı Oğuz – Qəbələ seçki dairəsinin 33 saylı seçki məntəqəsində baş verməsi iddia olunan qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 05 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlham Məmmədov